**TÜRKANƏ SARIYEVA**
**ADPU**
**turkanekamran@mail.ru**

# LİRİK ƏSƏRLƏRİN ORTA MƏKTƏBDƏ TƏDRİSİ ZAMANI FƏAL İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ (V SINIF MATERIALLARI ƏSASINDA)

**Açar sözlər**: lirik növ, ədəbiyyat, şeir, orta məkətəb, fəal interaktiv metodlar
**Ключевые слова**: лирический тип, литература, стихотворение, средняя школа, интерактивные методы
**Key words**: lyrics type, literature, poem, primary school, active interactive methods

Lirika sözü qədim yunan dilində “lira” sözündən götürülüb. ”Lira” qədim yunan musiqi aləti olub, bu alətin köməyi ilə oxunan nəğmələr sonralar lirika adlandırılıb. Azərbaycanda isə lirik əsərlər rübab musiqi alətinin adı ilə rübabi şeirlər adlandırılmışdır. Lirik növün janrları lirizmin tam üstünlüyü ilə yazılan əsərlərdir. Bunlar sayca olduqca çoxdur. Klassik ədəbiyyatda qəzəl, rübai, qəsidə, şifahi xalq ədəbiyyatında qoşma, gəraylı, bayatı, təcnis və s. bu növə daxil olan əsas nümunələrdir. Lirik növə daxil olan ən böyük janrlar mənzum roman və poemadır.

Şübhəsiz ki, lirik növün janrları içərisində önəmli yeri lirik şeir tutur. Lirika şairin fikir və duyğularını, həyatı intibahlarını ən səmimi hislərlə ifadə edən şeir növüdür. Lirika şairin qəlbindəki yaşantıların poetik sözdə əksidir. Poetik söz günəş işığı kimi hüdudsuzdur.

“Söz candır, əgər bilirsə insan // Sözdür ki, deyirlər özgədir can” deyirdi dahi Füzuli! Söz şairin ruhu, canıdır. Böyük alman filosofu F.Nitşe isə deyirdi “Qanına batırıb yaz, görəcəksən ki, söz qandır”.

Şeirdə forma məzmunun obrazıdır. Biz bu obraz vasitəsi ilə məzmunu anlayırıq, şair nə qədər daha dəqiq şəkildə obraza girə bilirsə, o şeirin məzmunu daha da gözəldir.

Təcrübə göstərir ki, dərsdə əsər üzrə iş düzgün təşkil edildikdə V-IX sinif şagirdləri lirik şeiri həvəslə oxuyur, emosionallıqla qavrayırlar. Bunun üçün müəllim fəal/interaktiv təlim metodlarından istifadə etməlidir.

Bildiyimiz kimi, təhsil sistemində edilən yeniliklər ədəbiyyatın tədrisinə də yeni məzmun, forma qazandırmışdır. Ədəbiyyatın yenilənmiş məzmunu yeni təlim üsulları ilə icra edildikdə, elmi-texniki tərəqqinin yeni imkanları həm şagirdlərin inkişafına, həm də tədris edilən biliklərin praktikada tətbiqinə müsbət nəticə verəcəkdir.

Beləliklə, qarşıya qoyulan məqsədə çatmaq üçün elmi ədəbiyyatlarda haqqında çox bəhs edilən İKT-nin nəzəri və praktik mərhələlərinə yiyələnməklə müasir dərsi qurmaq vacibdir. Elə bir dərs mühiti yaradılmalıdır ki, öyrədici mühit qurulsun, psixoloji gərginlik aradan qaldırılsın, eyni zamanda emosional vəziyyət, xoş ovqatın yaradılması mümkün olsun.

Fəal/interaktiv təlim dedikdə şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutulur. Ənənəvi təhsil proqramlarına nəzər salsaq, burada avtoritar metodikanın üstünlük təşkil etdiyini görə bilərik. Yeni təlim yanaşmalarına əsasən dərsdə müəllimin rolu dəyişir, müəllim artıq bilikləri hazır şəkildə verən roldan çıxır. O, fasilitator-bələdçi, öyrənməyi öyrədən, istiqamətləndirən mövqeyində çıxış edir. Dərslərdə əsasən əməkdaşlıq prinsipi, həmçinin tədqiqatçılıq bacarıqlarının inkişafı əsas məqsəd kimi qarşıya qoyulur.

Poeziyanı duymaq, sevmək, onunla yaşamaq və ona təsirli ifa ilə çatdırmaq, sevmək, onunla yaşamaq asan deyildir. Poeziya nümunələri sözə daha həssas münasibət, poetik dillə onun çalarlarına xüsusi yanaşma tələb edir. Bəs bu keyfiyyətlər məktəblidə necədir? Şagirdlər heca vəznli şeirləri hansı səviyyədə qavrayıb, dərk edirlər?

Lirik əsərlərin tədrisi zamanı müəllimi bir sual fikirləşdirir ki, mən nə etməliyəm ki, necə etməliyəm ki, şagirlər şeirdəki gözəlliyi duysun, onunla nəfəs alsın, hissləri zərifləşsin, duyğuları kövrək olsun.

Deməli, öyrətməyin də, öyrənməyin də məzmununda, formasında əsaslı dəyişikliyin aparılması zəruridir. Bu dəyişikliyin əsasında, mərkəzdə şagirdin obyektlə üz-üzə, təkbətək qoyulması dayanmalıdır. Bu isə yeni texnologiyaların fəal interaktiv təlimin ardıcıl, sistemli tətbiqini zəruri edir.

Xüsusi tədqiqatların nəticələri, şəxsi təcrübəm, müşahidələr göstərir ki, poetik nümunələrin məktəblidə doğurmalı olduğu estetik təsir yarımçıq, formalaşan bədii zövq yarımçıq olur. Bu hər sinifdə, daha dəqiq desək, ədəbiyyatın tədrisinin bütün mərhələlərində özünü bu və ya digər dərəcədə göstərir. Heca vəznli şeirlərin oxusu zamanı aşağı, orta və yuxarı siniflərin şagirdləri çox vaxt müəllimin hiss və duyğularından, şeirin janr xüsusiyyətlərindən xəbərsiz olurlar və çox təəssüf ki, əsərin məzmunca uyğun  ovqatı belə şagirdlərdə müşahidə etmək mümkün olmur. Şagirdlər heca vəznli şeirlərin oyrənilməsi zaman şeirdəki ürəyəyatan sözləri, obrazlılığı ilə diqqəti dərhal çəkən ifadələri laqeyd, biganə, mexaniki olaraq səsləndirirlər.

V sinifdə tədris olunan lirik əsərlərdən birinə diqqət yetirək. Burada Əhməd Cəmilin "Can nənə, bir nağıl de"əsərinin tədrisinə iki saat vaxt ayrılır. Birinci saat əsərin məzmunu üzrə iş, ikinci saat əsərin təhlilinə ayrılmışdır.

Motivasiya, problemin qoyuluşu mərhələsini müxtəlif təlim metodlarından istifadə etməklə fərqli şəkillərdə qurmaq olar. Bu mərhələdə müəllim şagirdlərin diqqətini müharibə mövzusunda öyrəndikləri, oxuduqları şeirlərə cəlb edir. Onların ideya-məzmunu ilə bağlı ümumi xüsusiyyətləri aşkara çıxarmaq üçün müəllim klaster (şaxələndirmə) üsulundan istifadə edə bilər. Bunun əsasında tədqiqat sualı formalaşır: Əsərdəki nənə və nəvənin hiss və düşüncələri sizə necə təsir etdi? Müharibənin uşaqlarda yaratdığı təəssüratlar hansılardır? Bu mərhələdə müəllim "Beyin həmləsi" (əqli hücum) metodundan istifadə edə bilər. Fərziyyələr müəllimin müdaxiləsi olmadan dinlənilir və qeyd edilir.

Tədqiqata əsərin oxusu ilə başlanılır. Oxu fərqli şəkillərdə aparıla bilər. Müəllim oxu üçün fasilələrlə oxu iş üsuluna müraciət edə bilər. Oxu zamanı tanış olmayan sözlərin mənası lüğət vasitəsi ilə aydınlaşdırılır. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda birləşərək fikir mübadiləsi aparırlar. Bunun ardınca onlar şeirlə bağlı təəssürat və düşüncələrini ikihissəli gündəlik üzərində işləyirlər. Bu iş formasından istifadə etməklə şagirdlər əsərlə bağlı təəssüratlarını müstəqil şəkildə ifadə edə bilirlər. İşin icrası üçün ayrılan vaxt bitdikdən sonra qrup təqdimatları əsasında məlumat mübadiləsi və müzakirəsi aparılır. Müəllim tanış olmayan sözlərin necə aydınlaşdırıldığına diqqət yetirir. Bu zaman metod kimi BİBÖ-dən istifadə oluna bilər. Müəllim istiqamətləndirici suallarla nəticənin çıxarılması və ümumiləşdirmə aparır. Dərs zamanı fəal interaktiv təlim metodlarından belə istifadə etməklə şagirdlər müstəqil tədqiqatçılığa cəlb olunur, onlarda yaradıcı təfəkkür inkişaf edir.

## İstifadə olunmuş ədəbiyyat

1. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Qanun nəşriyyatı, 2012
2. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: Nurlan, 2008
3. Əliyev S., Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ümumtəhsil məktəblərinin V sinif ədəbiyyat fənni üzrə dərslik. Bakı, 2017
4. Əliyev S., Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ümumtəhsil məktəblərinin V sinif ədəbiyyat fənni üzrə metodik vəsait. Bakı, 2017
5. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2010
6. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Proqres, 2012

7. Hüseyinoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: Fəal/interaktiv təlim. Bakı, 2009
8. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim nəşriyyatı, 2016

**Т.Сарыева**

## Пользование активными интерактивными методами во время обучения лирических произведений в средней школе

### Резюме

Внутренний потенциал поэтической поэмы очень богат. Невероятно поднять более глубокие проблемы с тонкими оттенками маленького стихотворения. Вот почему все эти особенности учитываются при обучении лирическим стихам,а в средней школе значение слов,незнакомых ученикам, выясняется при обучении поэтическим слогам. Определение свитков также важно.

Затем начинает приниматьлитературно-теоретическиепонятие ( жанр , рифмы, бейты , главы). Работа учителя направлена на получение правильного результата при обучении. Учитель выступает здесь как фасилитатор. Направляет студентов. Студенты руководствуются тем, что могут правильно рассмотреть тему и проблематику в поэзии,пусть они изучат характер и питание героя. Каждый этап современного урока ожидается

во время преподавания композиций . Новые учебные технологии используются

в учебной программе и правильная форма работы выбрана. Метод подходит для любого типа курса. Следуя всему этому,вы можете получить идеальный урок. Для этого учитель должен учитывать перечисленные методы.

**T.Sariyeva**

**Use of active interactive teaching methods
in secondary school lyric studies**

**Summary**

The poetic poems inner potential is very rich. It is unbelievable to raise deeper issues with subtle shades of a small poem. That is why allthese features are taken into account when teching lyric poems. In the middle school, the meaning of the words that are not familiar to thepupils are clarified whenteching poetry syllables. Identifiying the scrouls is also important. Then begins to adopt literary-theoretical concepts (genre,rhymes, gospels,chapters).

Teachers work is aimed at making the right result when teaching. The teacher stands here as a facilitator. Directs students. Stundents are guided so that they can properly adress the theme and problematic in poetry. Let them learn the characteristic and food of the hero. Every stage of the modern lesson is expexcted during the teaching of compositions. New learning technologies are used in the curriculum. Proper job form is selected. The method is suitable for the type ofcourse.

By following all of this, you can set a perfect lesson. For this, the teacher should take into account those listened.

**Rəyçi: Yaqub Babayev**
**Fiologiya elmləri doktoru, professor**